# IDEA İctimai Birliyi hamını "Sevincini bölüş"məyə çağırır

**IDEA İctimai Birliyi Bakıda istifadəsiz oyuncaqların ianə verilməsi üzrə "Sevincini bölüş" xeyriyyə kampaniyası keçirir. Aksiya çərçivəsində şəhərin müxtəlif yerlərində ianə qutuları yerləşdiriləcək. Burada xüsusi qayğıya ehtiyacı olan uşaqlar üçün oyuncaqlar toplanacaq.**




Kampaniyanın başlanğıcında ilk belə qutu dünən Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın iştirakı ilə "Gənclik Mall" ticarət mərkəzində istifadəyə verilib.

İnsanlar övladlarının artıq istifadə etmədikləri və paylaşmaq istədikləri oyuncaqları bu ianə qutusunda yerləşdirə bilərlər. Xeyriyyə aksiyası tezliklə paytaxtın digər ərazilərini də əhatə edəcək. İanə qutularına toplanan oyuncaqları xeyriyyə təşkilatları ayğıya möhtac uşaqlara çatdıracaqlar.

Xatırladaq ki, tullantıların azaldılması, təkrar istifadəsi və təkrar emalına xüsusi önəm verən IDEA İctimai Birliyi bu istiqamətdə genişmiqyaslı təbliğat və təşviqat tədbirləri həyata keçirir. Oyuncaqların da tullanması və çürüməsi ətraf mühitə zərərsiz ötüşmür. Ona görə də IDEA İctimai Birliyi paytaxt sakinlərini öz "sevincini bölüşməyə" başqaları ilə – evlərindəki istifadəsiz, yararlı oyuncaqları tullamaq əvəzinə, məxsusi qutulara yerləşdirməklə ehtiyacı olan uşaqlara öz yardım əlini uzatmağa, eyni zamanda, təbiətə vurulan zərəri azaltmağa çağırır.

Gəlin bu çağırışa qoşulmaqla sevincimizi bu duyğuya ehtiyacı olanlarla paylaşaq!

***"Xalq qəzeti"***